1.Dövrün qaynaqları Uzun Həsənin Quranı türkcəyə çevirtdirərək hüzurunda oxutdurması barədə məlumat verir. F.Sümer Uzun Həsənin Quranı ibadət zamanı oxunmaq üçün türkcəyə çevirtdiyini və o zaman din xadimləri və üləmanın buna qarşı çıxmasına görə, onun təşəbbüsünün baş tutmadığını yazır [42, 159-160]. Z.V.Toğan isə tarixçi Lariyə istinadən yazır ki, Uzun Həsən Quranı türkcəyə tərcümə etdirərək oxutdurmuşdur [47, 381]. Son illərdə aparılan araşdırmalar Z.V.Toğanın haqlı olduğunu göstərir. M.R.İsmayılzadə digər araşdırmalar və mətnə istinadən Uzun Həsənin əmri ilə tərcümə edilərək yazılmış Quranı müəyyənləşdirmiş və onu araşdırmaya cəlb etmişdir. Bu Quranın bir nüsxəsi İranın Məşhəd şəhərində İmam Rza adına muzeydə saxlanılır. Onun mətni tərcümə zamanı bir neçə türk ləhcələrinin sözlərindən müqayisəli şəkildə istifadə olunduğunu göstərir.

# İlk dəfə Quranı Azərbaycan dilinə tərcümə edən azərbaycanlılar

## *XX Əsrin əvvəllərində Bakıda 30-dan artıq xeyriyyə cəmiyyətləri fəaliyyət göstərirdi*

2..Məhəmməd Həsən 1854-cü ildə Şəkidə anadan olmuşdur və öz əsərlərinin bəzilərini Şəkuvi təxəllüsü ilə imzalamışdır. Gəncədə mədrəsə təhsilini bitirdikdən sonra Gəncə Cümə Məscidində molla kimi işləməyə başlayır. Bir il sonra təhsilini davam etdirmək üçün İraqa gedir və daha yüksək dini təhsilə malik olur. İraqda ali dini təhsil aldıqdan sonra Tiflisə qayıtmış, oradakı Şeyxülislam məktəbində şəriət və fiqhdən dərs demişdir. Qısa müddət ərzində Mövlazadə Qafqaz Müsəlmanları Şiə Ruhani idarəsinin Heyətinə üzv seçilir. 2 il sonra isə o, Tiflis və Kutaisi şəhərlərinin qazisi təyin olunur.

Məhəmməd Həsən Mövlazadə ərəb, fars, rus və türk dillərini mükəmməl bilirdi. Mükəmməl dil biliyinə görə çoxlu kitablar yazmışdır. Əsərləri qısa müddət ərzində dünyanın bir çox ölkələrində yayılmış və geniş oxucu kütləsinə malik olmuşdur.

1891-ci ildə Qafqaza qayıdır və Hicri və Miladi təqvimlərini birgə olaraq fars dilində çap etdirir.

Məhəmməd Həsən Mövlazadənin sünni cərəyanının Hənəfi məzhəbində olduğu iddia edilirdi. Aydındır ki, bütün Şeyxülislamlar şiə məzhəbində olmuşlar. Onlar vəzifələrinə görə də Qafqaz şiə müsəlmanlarına rəhbərlik edirdilər. Qafqazın sünni müsəlmanlarına rəhbərlik etmək üçün isə 1823-cü ildə müftilik vəzifəsi təsis edilmiş və müftinin özü də sünni təriqətində olmuşdur. Axund rütbəsi alan Məhəmməd Həsən bir müddət qazı, 1907-1909-cu ilədək şeyxülislamın əvəzləyicisi olmuşdur. 1908-ci ildə Məhəmməd Həsən Mövlazadə Qafqaz bölgəsi üzrə ilk Şeyxülislam seçilmişdir.

Qafqazda 2 illik Şeyxülislam olan Axund Məhəmməd Həsən Mövlazadə 1932-ci ildə 79 yaşında vəfat etmişdir. Tiflisin müsəlman qəbirsanlığında dəfn edilmişdir.

Həsən Mövlazadə qırmızı Sovet imperiyasının fiziki reqressiyası ilə üz-üzə gəlmişdir. İmperiya nökərləri onun zəngin kitabxanasını və əlyazmalarını müsdirə edib, yandırmışlar...

### 3.Repressiya qurbanı axund Mir Məhəmməd Kərim ağa

Azərbaycanda Qurani-Kərimin ilk tərcüməçisi axund Mir Məhəmməd Kərim ağa xalqın maariflənməsində, Bakıda qızlar məktəbinin açılmasında misilsiz xidmətləri olan məşhur din xadimi olub. Axund Mir Məhəmməd Kərim ağa İçərişəhərdə yaşayan tanınmış seyid, Bakının hörmətli şəxslərindən sayılan Ağa Seyid Məhəmmədin nəvəsidir.

Mir Məhəmməd Kərim ağa Cəfərzadə müsəlmanların müqəddəs kitabı olan Quranı ərəb dilindən Azərbaycan dilinə tərcümə edəndən sonra din xadimləri arasında ona qarşı hücumlar başlamışdı. Çünki mollalar istəmirdilər ki, camaat Qurani-Kərimi dərindən mənimsəsin. Qurandan xəbəri olmayanları aldatmaq, bu müqəddəs kitabı istədikləri kimi şərh vermək bəzi mollalara sərfəli idi.

Mir Məhəmməd Kərim ağa Cəfərzadə həmçinin müqəddəs kitabımızın üç cildlik təfsirini (izahı) hazırlamış və Quranla birgə məşhur neft milyonçusu, mesenat Hacı Zeynalabdin Tağıyevin köməkliyi ilə 1904-cü ildə "Kaspi" qəzetinin Bəxariyə mətbəəsində çap etdirmişdir. Onun bu zəhməti müqabilində Hacı Zeynalabdin Tağıyev kitabların ağırlığında Mir Məhəmməd ağaya qızıl da bağışlamışdı.

Mir Məhəmməd Kərim ağanın doğum tarixi mübahisəlidir. Müəlliflər axundun





1853-cü ildə anadan olduğunu yazırlar. Lakin Mir Məhəmməd Kərim ağanın doğum tarixi haqqında ən müfəssəl məlumat Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində saxlanılan, axundun oğlu Böyükağa - əsl adı Mir Cəfərin 1976-cı ilin may ayının 21-də yazdığı qeyddir. O yazır:

"Atam, Mir Məhəmməd Kərim Cəfərzadə 1855-ci ilin iyun ayında anadan olmuşdur. Bu şeir atam Mir Məhəmməd Kərim Cəfərzadənindir.

*"Yetmiş səkkiz sinə vardım, daima leylü-nəhar, Bu cahan əsrarının həllində oldum paydar:*

*Qibət məlumum oldu, ey həkimani - cahan, Bu cahan əsrarının həllində yoxmuş iqtidar""*.

Göründüyü kimi, şair bu misraları 78 yaşında yazmışdır. Axundun oğlu qeyd edir ki, bu şeiri atası 1933-cü ilin sentyabrında qələmə alıb. O zaman şeirin 1933-cü ildə yox, 1931-ci ildə yazıldığı müəyyənləşir. Axundun oğlunun sözündən belə nəticəyə gəlmək olur ki, 78 yaşında yazılan bu şeirin müəllifi axund Mir Məhəmməd Kərim Cəfərzadə 1853-cü ildə yox, 1855-ci ildə doğulub. Lakin Mərkəzi Dövlət Tarix Arxivi alimin doğum tarixi haqqında verdiyi arayışda Mir Məhəmməd Kərim ağanın 1853-cü ildə anadan olduğu göstərilir. Bu arayışı daha dəqiq hesab etmək olar. Çünki XX əsrin əvvəllərinə qədər doğum, ölüm, kəbin haqqında qeydlər həmən şəxsin yaşadığı evin yaxınlığındakı məscidlərdə aparılırdı.

### Bakı quberniyasının qazisi

Mir Məhəmməd Kərim ağa Cəfərzadə ilk təhsilini yaşıdları kimi, doğulduğu Bakı şəhərindəki mədrəsədə almışdı. O, öz istedadı və bacarığı ilə seçilirdi, öz üzərində yorulmadan çalışmaqla daha yüksək biliklər qazanmaq üçün elmin müxtəlif sahələrinə müraciət edirdi. Fitri istedadını görən ata təhsilini davam etdirmək üçün Mir Məhəmməd Kərim ağanı İraqın Bağdad şəhərinə göndərmişdi. Mir Məhəmməd Kərim ağa burada on il tam təhsil aldıqdan sonra vətənə qayıtmışdır. İsmailiyyə binasının təməlqoyma mərasimində o, Bakının qazısı olaraq dua oxumuşdu. Mir Məhəmməd Kərim ağa Cəfərzadə öncə İçərişəhərdəki "Şah məscidi"ndə axund, sonra isə yüksək bilik və bacarığına görə Bakı quberniyasının qazisi təyin edilmişdi. O, şəhərin ictimai-mədəni həyatında, xalqının maariflənməsində fəal iştirak edirdi. Bəzi qaragüruh ruhanilər qızlara təhsil vermək təklifindən qəzəblənərək avam camaatı ayağa qaldırır və bəzən onları "cihad"a çağırmaqdan belə çəkinmirdilər.

Lakin qız məktəbini açmaq təklifini H.Z.Tağıyev bəyənmişdi və buna görə də, şəhərin maarifpərvər axundlarından bir neçəsini öz vəsaiti hesabına islamın müqəddəs sayılan yerlərinə - Məkkəyə, Kərbəlaya, Xorasana, Məşhədə və s. yerlərə göndərir və tapşırır ki, orada olan mötəbər, rəsmi din xadimlərindən sənədlər alsınlar ki, müsəlman qızları şəriət məktəblərində təhsil ala bilər və burada heç bir qəbahət görmürlər. Bununla da, axund Mir Məhəmməd Kərim ağa və başqa sağlam fikirli ruhanilər qaragüruhçuların təqiblərindən xilas olurlar.

XX əsrin əvvəllərində Bakıda 30-dan artıq xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi. Əhəmiyyətinin dərəcəsinə görə bunların arasında 1906-cı il martın 4-də nizamnaməsi təsdiq edilmiş, noyabrın 10-da isə Bakı dumasının zalında təntənəli açılışı olmuş tam şəkildə "Nəşri-savad və maarif", qısaca olaraq "Nəşri-maarif" adlanan xeyriyyə cəmiyyətini xüsusilə qeyd etmək olar. Bu cəmiyyətin başlıca məqsədi Bakı şəhərində və quberniyasında yaşayan müsəlmanlar arasında elm və maarifi, xüsusilə ibtidai təhsili Azərbaycan və rus dillərində yaymaq, hər növ maarifçilik fəaliyyətini dəstəkləmək idi. Həmin cəmiyyətə Bakı quberniyasının baş qazisi və Bakı Müsəlman Şiə Ruhani İdarəsinin sədri Axund Mir Məhəmməd Kərim Mircəfərzadə sədr, vətənpərvər ziyalı Əhməd bəy Ağayev isə katib seçilmişdi.

### "Antisovet Quran"a görə güllələnmə

Mir Məhəmməd Kərim ağa ədəbi fəaliyyətlə də məşğul olub. O, şərq dillərindən - əsasən ərəb dilindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə etmişdir. O, böyük ərəb yazıçısı, alimi Cürci Zeydanın İslam tarixinə aid on yeddi romanından beşini Azərbaycan dilinə çevirmişdir. Bunlardan "Əzrayi-Qüreyş", "Kərbəla yanğısı", "Osmanlı inqilabı", "İslamın mədəniyyət tarixi", "On yeddi Ramazan" tarixi romanlarını göstərmək olar. Mir Məhəmməd Kərim ağa Şam və Fələstində müsəlmanlarla xristianlar arasında gedən ikiyüzillik (490-690) müharibəni təsvir edən "Səlib müharibəsi" romanını yazmış və 1913-cü ildə nəşr etdirmişdir.

30-cu illər repressiyaları Mir Məhəmməd Kərim ağa Cəfərzadədən də yan keçməmişdir. "Üçlük" nəzarəti altında gedən repressiyanın qurbanları siyahısında nəinki ziyalılar, əksinqilabçılar, inqilabdan əvvəl müxtəlif partiya üzvləri, fəhlələr, kəndlilər, hətta dini xadimlər də var idi. Həmin din xadimlərindən biri də ictimai həyatımızda əvəzsiz xidmətləri olan axund Mir Məhəmməd Kərim Cəfərzadə idi.

Qala-Maştağa rayonu antisovet elementlərin (ASE) fəallarının siyahısının çıxarışında göstərilirdi: "Mir Məhəmməd Kərim Mir Cəfər oğlu - 70 yaşında, keçmişdə Qazi, səsdən məhrum edilmiş, məşğuliyyəti müəyyən edilməmiş, Mərdəkan kəndindən, mühakimə olunmamış. Keçmiş Zaqafqaziya "Qazi"si, gizli şəkildə dinin təbliği ilə məşğuldur, çadranın atılmasına qarşı təbliğat aparır və qadınların ictimai işlərdə iştirakının əleyhinədir. Azərbaycan SSR Xalq Daxili İşlər Komissarının müavini, təhlükəsizlik ma... Borşev əsli ilə düzdür: XDİK-nın ray... şöbəsinin rəisi Ziyalov 13 fevral 1938-ci ildə tərtib olunmuş "Axtarış protokolu"nda göstərilir ki, M.K.Cəfərzadənin evində axtarış aparılan zaman C/V 183877 saylı pasport və müxtəlif antisovet quranlar aşkar edilib". 14 fevral 1938-ci ildə Ziyalovun imzası ilə Mir Məhəmməd Kərim Mir Cəfər oğlu Cəfərzadənin həbsi üçün həmin gün order yazılır. Həmin gün də Axund Mir Məhəmməd Kərim ağa XDİK-nin Maştağa rayon şöbəsindən tərəfindən həbs edilir. Axund Mir Məhəmməd Kərim ağa 1938-ci ildə güllələnib.